# AZƏRBAYCAN RESPUBLİKASININ STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN KOLLEGİYASI

**Q Ə R A R № 150111500016**

*Bakı şəhəri* *"14" dekabr 2015-ci il*

**Dövlət standartlarının təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 22 noyabr 1998-ci il tarixli 26 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin Azərbaycan Respublikası ərazisində tanınması və tətbiq edilməsi Qaydaları"nın 2, 3, 6 və 7-ci bəndlərini və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 31 avqust tarixli 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi haqqında" Əsasnamənin 8.12 və 8.45-cibəndlərini rəhbər tutaraq **qərara alınır**

1. Beynəlxalq, Avropa və Rusiya Federasiyasının milli standartları əsasında hazırlanmış aşağıdakı dövlət standartları təsdiq edilsin.

1.1. AZS 810-2015 (CODEX STAN 310-2013) "Nar" (1 nömrəli əlavə).

1.2. AZS 837-2015 (CODEX STAN 152-1985) "Buğda unu"(2 nömrəli əlavə).

1.3. AZS 838-2015 (CODEX STAN 33-1981) "Zeytun yağları və cecələrdən sıxılmış zeytun yağları" (3 nömrəli əlavə).

1.4. AZS 839-2015 (CODEX STAN 87-1981) "Şokolad və şokolad məhsulları" (4 nömrəli əlavə).

1.5. AZS 840-2015 (CODEX STAN 279-1981) "Kərə yağı" (5 nömrəli əlavə).

1.6. AZS 841-2015 (CAC/MRL-2-2015) "Yeyinti məhsullarında baytarlıq preparatlarının qalıqlarına dair yol verilən maksimum konsentrasiyalar (YKM) və risklərin idarəedilməsi üzrə tövsiyyələr" (6 nömrəli əlavə).

1.7. AZS 842-2015 (CAC/RCP1-2015) "Qida gigiyenasının ümumi prinsipləri-tövsiyyə edilən beynəlxalq təcrübə kodeksi" (7 nömrəli əlavə).

1.8. AZS 843-2015 (ГОСТ Р 51074-2003) "Qida məhsulları. İstehlakçı üçün məlumat. Ümumi tələblər" (8 nömrəli əlavə).

1.9. AZS 856-2015 (ГОСТ Р 51204-98) "Dəmir yolunun kontakt şəbəkəsi üçün çubuqlu polimer izolyatorlar. Ümumi texniki şərtlər" (9 nömrəli əlavə).

1.10. AZS 860-2015 (ГОСТ Р 51377-99) "Məişət qızdırıcı qaz konvektorları təhlükəsizlik tələbləri və sınaq üsulları" (10 nömrəli əlavə).

2. Qanunvericilik və hüquq ekspertizası şöbəsinə (E.Cəbrayılov) tapşırılsın ki, bu Qərarın 1-ci bəndi ilə təsdiq edilmiş dövlət standartının Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gündən gec olmayaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Texniki tənzimləmə və standartlaşdırma şöbəsinə (N. Tağıyev) tapşırılsın ki, bu Qərarın 1-ci bəndi ilə təsdiq edilmiş dövlət standartının qeydiyyata alınmasını təmin etsin.

4. Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutuna (X.Məmmədov) tapşırılsın ki, bu Qərarın 1-ci bəndi ilə təsdiq edilmiş dövlət standartının texniki tənzimləmə və standartlaşdırma üzrə texniki normativ hüquqi aktların dövlət fonduna daxil edilməsini təmin etsin.

5. Ümumi şöbəyə (X.Həsənovaya) tapşırılsın ki, aidiyyəti struktur bölmələrini bu Qərarla tanış etsin.

6. Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikası Standartlaşdırma,**
**Metrologiya və Patent üzrə Dövlət Komitəsinin**
**sədri** **Ramiz Həsənov**

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 14 dekabr 2015-ci il tarixli 150111500016 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**AZƏRBAYCAN RESPUBLİKASININ**

**DÖVLƏT STANDARTI**

---

_

**KƏRƏ YAĞI**

**AZS 840-2015**
**(CODEX STAN 279 – 1981)**

---

_

# MÜQƏDDİMƏ

1. "Qida məhsullarının standartlaşdırılması üzrə" Texniki Komitə (TK 07) tərəfindən hazırlanıb və təqdim edilib. Kodeks Alimentarius Milli Komitəsi tərəfindən dövlət standartı kimi qəbul edilməsi məqsədəmüvafiq hesab edilmişdir.

2. Bu standart, CODEX STAN 279 – 1985, «Standard for butter» standartının autentik tərcüməsi əsasında hazırlanmışdır.

3. İlk dəfə tətbiq edilir.

4. Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın ilkin yoxlama müddəti 2020-ci il, dövrü yoxlama müddəti 5 ildir.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

---

**Kərə yağı**

**Стандарт для сливочного масла** **AZS 840-2015**

**(CODEX STAN 279 – 1981)**

**Standard for butter**

---

## 1.TƏTBİQ SAHƏSİ

Bu standart, 2-ci maddədə göstərilən birbaşa istehlak üçün nəzərdə tutulmuş kərə yağına aid edilir.

## 2.TƏRİF

Kərə yağı - xüsusi olaraq süddən alınmış və ya süddən hazırlanmış məhsullardan alınmış, əsasən suda - yağ emulsiya tipli formaya malik yağ məhsuludur.

## 3. ƏSAS TƏRKİB VƏ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİ

**3.1.** Xammal
**a) s**üd və ya süddən alınmış məhsullar.

**3.2.** İcazə verilən inqrediyentlər
**a)** xörək duzu
b) təhlükəsiz laktan turşusunun başlanğıc kulturaları və ya qoxu yaradan bakteriyalar
c) **i**çməli su.

**3.3**. Tərkibi

| | |
|---|---|
| a) minimum süd yağının miqdarı | 80% m/m |
| b) maksimum su miqdarı | 16% m/m |
| c) maksimum qeyri – yağ tərkibli südün quru maddəsinin miqdarı | 2% m/m |

## 4.QİDA ƏLAVƏLƏRİ

Qida Əlavələri üçün Ümumi Standartda (AZS CODEX STAN 192-1995) Cədvəl 1 və 2 – də 02.2.1 (Kərə yağı) üçün sadalanan qida əlavələri bu məhsulda istifadə olunur.

## 5.ÇİRKLƏNDİRİCİLƏR

Bu standartın şamil edildiyi məhsullar "Qida Məhsulları və Yemlərdə Qarışıqlar və Toksinlər üçün ümumi standart"ında (AZS CODEX STAN 193-1995) göstərilən məhsul üçün çirkləndiricilərin maksimum yol verilə bilən səviyyələri ilə müqayisə edilir.

Standartın şamil edildiyi məhsulların istehsalı üçün istifadə edilən süd "Qida Məhsulları və Yemlərdə Qarışıqlar və Toksinlər üçün ümumi standart"ında (AZS CODEX STAN 193-2013) göstərilmiş süd üçün çirkləndirici və toksinlərin maksimum səviyyələri və baytarlıq dərmanları qalıqları və CAC tərəfindən süd üçün müəyyən edilmiş pestisidlərin maksimum qalıq limitləri ilə müqayisə edilir.

## 6.GİGİYENA

Bu standartın sərhədləri ilə əhatə olunan məhsulların hazırlanması və satışı Qida Məhsulları Gigiyenasının Ümumi Prinsipləri (CAC/RCP 1-1969), Süd və Süd Məhsullarının Gigiyenik Praktika Kodu (CAC/RCP 57-2004) və Gigiyenik Praktika Kodu və Praktika Kodları kimi digər kodeks mətnlərinin müvafiq bölmələrinə əsasən aparılması tövsiyyə edilir. Məhsulun hər hansı bir mikrobioloji xüsusiyyəti Qida Məhsullarında Mikrobioloji Tələblərin Müəyyən və Tətbiq edilməsi Prinsipləri (CAC/GL 21-1997) ilə müqayisə edilir.

## 7.MARKALANMA

Qablaşdırılmış Qida məhsullarına dair Ümumi Standartın (CODEX STAN 1-1985) və Süd Məhsulları Təriflərinin İstifadəsinə dair Ümumi Standartın (CODEX STAN 206-1999) əhatə sahəsinə əlavə olaraq aşağıdakılar nəzərə alınır:

**7.1** Məhsulun adı "Kərə yağı" olmalıdır. "Kərə yağı" adı müvafiq xüsusiyyətlərlə birlikdə 95% yağlılığa malik kərə yağları üçün istifadə edilə bilər.

**7.1.1** Kərə yağının duzlu və ya dussuz olması qeyd edilir.

**7.2.** Süd yağı miqdarının qeyd edilməsi.

Tərkibindəki süd yağı miqdarının açıqlanmadığı təqdirdə istehlakçı yanıldılarsa süd yağı miqdarının açıqlanması satış aparılan ölkədə ümumi kütlənin faiz nisbəti formasında və yaporsiyaların sayının göstərilməsi şərti ilə, etiketdəki məlumatlara müvafiq olaraq hər porsiyadakı çəki (qram) formasında son istehlakçıya çatdırılır.

**7.3.** Qeyri-pərakəndə (topdan) satış üçün nəzərdə tutulmuş konteynerlərin markalanması.

Bu standarta və Qablaşdırılmış Qida Məhsullarının Markalanmasına dair Ümumi Standartın (CODEX STAN 1-1985) 4.1 – 4.8 yarımbəndlərində və zəruri olduqda saxlama təlimatlarında tələb edilən məlumat ya konteyner üzərində yaxud məhsulun adı, partiya nömrəsi və istehsalçının və qablaşdrıanın adı və ünvanı istisna olmaqla digər məlumatlar əks edilmiş əlavə sənəddə göstərilir.

Partiya nömrəsi, istehsalçının və qablaşdıranın adı və ünvanı tanıdıcı işarələnmə ilə də əvəz edilə bilər və bu işarələnmə bir mənalı olaraq müşayət edən sənədi təyin edir.

## 8. ANALİZ VƏ NÜMUNƏ GÖTÜRMƏ ÜSULLARI

CODEX STAN 234 – 1999 bax

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 14 dekabr 2015-ci il tarixli 150111500016 nömrəli Qərarı ilə təsdiq edilmişdir.